# "Yaradıcılıq elə bir şeydir ki, istəsən də, onu boğa bilməzsən"

## Günay Səttar: "Hətta heç bir şərait olmayan yerdə də istedadlı gənc əvvəl-axır nəsə edəcək"



**Bu gün Azərbaycan gənclərinin bayramıdır. Bu bayram gənclərə ümummilli liderimiz Heydər Əliyevin hədiyyəsi idi. O, gəncliyi hər mənada güclü görmək istəyirdi və bunun üçün əlindən gələni edirdi. Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır desək, yəqin ki, yanılmarıq. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılıdır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir.**

Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, incəsənətimizi göz bəbəyi kimi qoruyub yaşadır. Onlar öz həyatını qurarkən, öncə, müstəqil Azərbaycanın bugünü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirirlər. İstənilən sahədə gənclərimiz onlara edilən ümidləri doğruldur. Elə bu günkü müsahibimiz gənc rejissor Günay Səttar kimi.

Günay görkəmli sənətkarımız, mərhum Vaqif İbrahimoğlunun yetirmələrindəndir. O, xaricdə bir sıra tanınmış ustad rejissorların tədris prosesindən bəhrələnib. Paytaxt teatrlarında hazırladığı tamaşalarla öz adını teatr tarixinə yazdırmağı bacarıb. Günay nəinki dövlət teatrında çalışıb, hətta bir müddət Mingəçevir Dövlət Teatrında baş rejissor vəzifəsində bir sıra tamaşaların hazırlanmasında böyük rolu olub. Hazırda Dövlət "Yuğ" Teatrında tamaşalar hazırlayır. Bir neçə il bundan öncə isə Gənclər və İdman Nazirliyi tərəfindən "İlin ən istedadlı rejissoru" adına layiq görülüb.

Beləliklə, gənc rejissor "Kaspi"yə müsahibəsində gəncləri təbrik edərək, onlara öz tövsiyələrini verdi.

**- Günay xanım, bu gün gənclər günüdür. Bu münasibətlə sizi təbrik edirik. Hazırda gənclərin teatrdakı rolu sizi qane edirmi?**

- Çox sağ olun. Əlbəttə, qane edir. Azərbaycan xalqının kifayət qədər istedadlı aktyor, aktrisa, rejissor gəncləri var. Ətrafımdakı istedadlı gənclərin əksəriyyəti Azərbaycan incəsənətinin, teatrının inkişafında öz rolunu oynayır. Bəzən istedadlı gənclərin üzə çıxmasında məkan, şərait seçimi düzgün şəkildə qurulmur. Gənclər özlərini təsdiq etmək üçün dəridən-qabıqdan çıxmalı və çox çalışmalıdırlar. Bu qanun hər yerdə belədir. Gənclər özlərini təsdiq eləməli, tanınmaları üçün əllərindən gələni etməlidirlər. Əgər hər hansı bir gənc nəyəsə qadirdirsə, o, şəraitsizliyin içində də nələrisə edə bilər. Bu mənim düşüncəmdi. Bunu çox yerdə görmüşəm. Gənclər üçün münbit şərait olsa, nə gözəl olar. Ancaq bu mütləq deyil. Daxilində zərrə qədər də olsa, yaradıcılıq potensialı olan insan hər zaman özünü büruzə etməyi bacarır. Rejissor sənəti müstəqil sənətdir. Mənə görə, hər bir rejissorun potensialı olmalıdır.

**- Gənc rejissor olaraq gənclərimizə bu özəl gündə nə arzu edirsiniz?**

- Uğur gənclərimizlə olsun. Daima arzu və istəklərinin arxasınca qaçsınlar. İnşallah, gün gələr, dünyadakı istedadlı gəncləri nümunə göstərməyə ehtiyac qalmaz. Özümüz kimlərəsə nümunə olarıq. Vaxt gələcək, dünyaya bizim etdiklərimizi təqdim edəcəklər. Qoy gənclərimiz hər zaman yenilikçi, nobelçi olsunlar. Düzdür, istedadlı gənclərimiz çoxdur, ancaq sayları çox olsa, xalqımız üçün daha xeyirli olar.

**- Günay xanım, siz həm bölgə, həm də paytaxt teatrlarında kifayət qədər çalışmısınız. Sizcə, nə üçün teatrın yaşlı nümayəndələrinin gənc nəsil ilə ulduzları barışmır.**

- Yaşlı nəslin nümayəndələrinin qısqanclıq səbəblərini anlayıram. Onların zamanında hər şey daha çətin olub. Məhz bu səbəbdəndir ki, onlar bir az gəncləri qısqanırlar. Ancaq çalışdığım "Yuğ" Teatrında belə hallarla rastlaşmamışam. Əksinə, çalışdığım teatrda yaşlı nəslin nümayəndələri gənclərə çox hörmət edir və onlar üçün əllərindən gələni edirlər. Biz hər zaman özümüzdən böyük aktyorların hörmətini saxlamışıq. Ancaq kənardan bu mövzu barədə eşitdiklərim də az olmayıb. Hesab edirəm ki, gənclər o sözlərə əhəmiyyət verməməlidir. Yaşlı nəslin belə münasibətini normal hesab edirəm.

**- Bəs, bir gənc kimi dövlətin gənclərə olan dəstəyi sizi qane edirmi?**

- Özümü realizə etməyim üçün hər zaman yaxşı şərait yaradılıb. Ustad dərsləri almaq üçün xarici ölkələrə göndərilmişəm. Təhsilimi artırmaq üçün xarici teatr prosesindən yararlanıb, əcnəbi rejissorlardan dərslər almışam. Paytaxt və bölgə teatrlarında işləmək üçün dövlətimiz mənə hər bir imkan və şərait yaradıb. Gənc rejissor kimi deyə bilərəm ki, özümü tanıdıb, yetişdirməyim üçün dövlətimizdən hər bir dəstək almışam. Bundan əlavə, mən elə hesab edirəm ki, gənclərin özlərindən də çox şey asılıdır. Dövlət gənc rejissorlara hər nə qədər dəstək olsa belə, rejissor özü inkişafı üçün nəsə etməlidir. Dünyada elə çox tanınmış rejissorlar var ki, heç onlara dəstək olunmayıb. Onlar öz dövrünün yaşadan, yenilikçi insanları olublar. Heç kim onlara dayaq durmayıb. Maddi vəziyyətləri pis olub. Ancaq buna baxmayaraq, öz cəmiyyətlərini arxalarınca apara biliblər. Müasir dövrümüzdə də belə gənclərimizi görmək istəyirik. Tutalım ki, gənclər üçün heç bir şərait yaradılmayıb, amma hansısa gəncin istedadı varsa, o, əvvəl-axır nəsə edəcək. Əgər mənə heç bir şərait yaradılmasa və mənim hər hansı ideyam varsa, bunu özüm edərəm. Yaradıcılıq elə bir şeydir ki, sən istəsən də, onu boğa bilməzsən. Bir otaq tapıb, 3 aktyorla da ortalığa hansısa bir işi çıxara bilərsən. Dəstək 100 faizlik bir səbəb deyil.

Bildiyiniz kimi, 7 il bundan öncə dövlət başçımız "Azərbaycan teatrı 2009-2019-cu illərdə" sərəncamı imzaladı ki, bu proqrama görə, 10 illik plan çərçivəsində gənclərə dəstək olunur. Bu proqram vasitəsi ilə Azərbaycan teatr sənətinin yaxın 10 il ərzində inkişaf perspektivləri müəyyənləşdirildi. Orada qeyd edilir ki, teatr sahəsinə gənc, istedadlı və peşəkar kadrlar cəlb edilib, bu sahə üzrə ixtisaslaşdırılacaq. Yəni deməyim odur ki, bu proqramdan çevrəmdə olan bir sıra gənclər, elə içi mən qarışıq, yararlandıq. Ümumiyyətlə, gənc istedadlı olanda, onunla hər şey etmək olur. Misal üçün, bugünün istedadlı gənclərindən Mikayıl Mikayılov, Tural Mustafayev, İradə Gözəlova, Şahbaz Rəsul xarici ölkələrdə ustad dərsləri alıblar. Müxtəlif teatrlarda baş rejissor kimi də çalışıblar.

**- Adlarını sadaladığınız gənclər də Vaqif İbrahimoğlunun tələbələridir. Vaqif İbrahimoğlu demişkən, bu yaxınlarda "Yuğ" Teatrı Abdulla Şaiq adına Kukla Teatrına köçürüldü. Hazırda vəziyyət necədir?**

- Xəbəri eşidəndən bəri bir neçə vaxtdır teatra getmirəm. İndi o binamızda söküntü işləri gedir. "Yuğ" Teatrının sökülməsi mənə heç də xoş deyil. 13 ilə yaxındır ki, teatrda işləyirəm və mənim işlədiyim, öyrəndiyim, yetişdiyim teatr məhz "Yuğ" Teatrı olub. O teatr həm də bir tarixi abidədir. Kaş ki biz fəaliyyətimizi orada davam etdirəydik. Bilirsiniz, belə hallar baş verəndə, rejissorlara heç nə olmur. Olan kollektivə olur. Bina sökülürsə, o zaman teatrın dağılmasından narahatam. Ümumiyyətlə, "Yuğ" Teatrı dövlətə məxsusdur. Yəni biz dövlət müəssisəsiyik. Bizə deyirlər ki, bura dövlətə aid yerdir. Misal üçün, mən uşaq tərbiyə edirəm. Uşağımı lap tərbiyəsiz də böyütsəm, kiminsə buna qarışmağını istəmərəm. Dövlət də onun kimi. O necə istəyir, elə də qərar verir. Bu məsələdə deyiləsi ikinci bir söz tapa bilmirəm. Teatrımızın direktoru bizə hər şeyin yaxşı olacağı vədini verib. İnşallah, yaşayarıq görərik.

**- Siz də Vaqif İbrahimoğlunun yetirmələrindənsiniz. İşləyərkən müəlliminizi xatırlayırsınızmı?**

- Mən müəllimimlə birlikdə cəmi 25 tamaşa işləmişik. O, tamaşa hazırlayarkən mən də iştirak edib, rejissor assistenti kimi fəaliyyət göstərmişəm (kövrəlir). Bu gün o olsaydı, hər şey başqa cür olardı. "Yuğ" Teatrında hazırladığım sonuncu "Şok" tamaşasını da məhz Vaqif İbrahimoğluya həsr etmişəm. Biz elə bil Vaqif müəllimin evində oturmuşduq. O, bu binanın da ərsəyə gəlməsində böyük problemlərdən keçmişdi. Vaqif İbrahimoğlu olsaydı, hər şey başqa cür olardı. Əsas məsələ də onun həyatda olmamağıdır.



**- Günay xanım, siz bir müddət bölgə teatrında baş rejissor vəzifəsində çalışdınız. Bu gün bölgə teatrlarımız nədən əziyyət çəkirlər?**

- Mingəçevir Dövlət Teatrına gedəndən sonra gənclərdən ibarət studiya yaratdıq. O studiyada istedadlı gənclər yetişir. Hər bölgədə olduğu kimi, orada da maddi problemlər var idi. Mingəçevir teatrında çox istedadlı gənclərimiz var. Onları saxlamağa çalışsaq da, maddi cəhətdən təmin edə bilmirdik. Ancaq buna baxmayaraq, həmin gəncləri istedadlı, yararlı kadr kimi yetişdirmək olar. Ancaq gördük ki, onlar maddiyyatla rəqabətə tab gətirməyib qala bilmirlər. Hesab edirdim ki, yaradıcı problem əsasdır. Yerdə qalan məsələləri həll etmək olar. Ancaq gördüm ki, gənclər teatrla yanaşı, başqa yerdə də işləmək məcburiyyətində qalırlar. Onların qayğıları çoxdur. Misal üçün, tələbə 150 manata həm kirayə qalıb, həm də çalışa bilmirdi. Hər işin başında maddiyyat dayanır. Bölgə teatrının özünəməxsus problemləri var. Maddiyyat məsələsinə baxmayaraq, inzibati cəhətdən heç bir çətinlik çəkmirdik. Mingəçevir Teatrı müasir standartlara uyğun tikilib.

**Xəyalə Rəis**

## Gənclər günü münasibətilə "Ağ ölüm" göstəriləcək...



**Dövlət Gənc Tamaşaçılar Teatrında V.Siqarevin "Ağ ölüm" tamaşası göstəriləcək. Səhnə əsəri 2 fevral Gənclər günü münasibətilə Azərbaycan Dövlət Dəmir Yolu Liseyinin müəllim və tələbə kollektivinə nümayiş etdiriləcək.**

Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsdiq olunmuş tədbirlər planına uyğun olaraq V.Siqarevin "Şeytan ailəsi" adlı əsəri əsasında səhnələşdirilmiş tamaşanın quruluşçu rejissoru Ayla Osmanova, quruluşçu rəssamı Elşən Sərxanoğludur.

Gəncləri və yeniyetmələri bu cür qorxulu bəladan çəkindirmək məqsədilə hazırlanan tamaşada əsas obrazları əməkdar artist Nübar Novruzova, aktyorlar Rəzzaq Məmmədov, Vüsal Mehrəliyev, Zülfiyyə Alhüseynova, Səbinə Məmmədova, Manaf Dadaşov və Anar Seyfullayev canlandıracaqlar.

Bu gün dünyanı narahat edən əsas problemlərdən biri narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqdır. Bu problem insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir.